

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 200 (23.842)

28 oktyabr 2021-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda Qars müqaviləsinin 100 illik yubileyi qeyd olunub






Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" 2021-ci il 8 fevral tarixli Sərəncamına əsasən oktyabrın 27-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında beynəlxalq Qars müqaviləsinin 100-cü ildönümünə həsr olunmuş yubiley tədbiri keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Qars müqaviləsinin imzalanmasından 100 il ötür. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan sənəddir".*** Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli yol keçmiş, gərgin siyasi mübarizələr meydanı olmuş, lakin bütün bunlara baxmayaraq, xalqımızın zəngin tarixi-mədəni irsini və dövlətçilik ənənələrini qoruyub yaşatmış, ölkəmizin ictimai-siyasi və sosial-iqtisadi həyatına mühüm töhfələr vermişdir. Qars müqaviləsinin imzalanması və Naxçıvana muxtariyyət statusunun verilməsi də dövlətçilik tariximizdə vacib mərhələdir. Qars müqaviləsi böyük tarixi, hərbi-siyasi və diplomatik mübarizələrin məntiqi nəticəsidir. Ona görə də bu müqavilədən danışarkən, ilk növbədə, onun hansı zərurətdən imzalanmasına və tarixi-siyasi əhəmiyyətinə diqqət yetirmək lazımdır.

Ali Məclisin Sədri demişdir: Birinci Dünya müharibəsi başa çatdıqdan və Çar Rusiyasının süqutundan sonra bölgədəki mövcud ictimai-siyasi vəziyyətdən istifadə edən ermənilər Naxçıvana qarşı əsassız ərazi iddialarına başlamış, ardınca bolşevik-daşnak sövdələşməsinin nəticəsi olaraq Zəngəzur mahalı Ermənistana verilmiş və Naxçıvan ölkənin əsas ərazisindən təcrid olunmuşdu. Regionda marağı olan böyük dövlətlərin məsələyə ədalətsiz yanaşması isə mövcud vəziyyətdən istifadə edən erməniləri daha da fəallaşdırmış, onlar Naxçıvanda dinc əhaliyə qarşı kütləvi soyqırımlara başlamışlar. Həmin dövrdə Naxçıvan əhalisinin isə yalnız bir qanuni tələbi vardı: o da öz tarixi ərazisində yaşamaq, daim Azərbaycanla bir olmaq, ana Vətəndən ayrı düşməmək idi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti yaranandan sonra naxçıvanlılar dəfələrlə Azərbaycana birləşmək iradəsini ortaya qoysalar da, siyasi və beynəlxalq vəziyyət bu istəyin həyata keçməsinə imkan verməmişdi. Naxçıvan Milli Şurasının Xalq Cümhuriyyəti hökumətinə məktublarında deyilirdi: "Biz ermənilərə tabe olmuruq. Tezliklə Azərbaycan qoşunları tərəfindən Zəngəzurun tutulmasını və Azərbaycana birləşməsini gözləyirik".

Hadisələrin bu cür inkişafının nəticəsi olaraq milli vətənpərvər qüvvələr tərəfindən 1918-ci ildə yaradılmış Araz-Türk Cümhuriyyəti Naxçıvanın erməni daşnak hökuməti tərəfindən ilhaq edilməsinin qarşısını almış və müstəqillik mübarizəsində Azərbaycanın ərazi bütövlüyünü təmin etmişdir. Lakin bu bir reallıqdır ki, Naxçıvanın Azərbaycanın tərkibində qalmasında və sonradan muxtariyyət statusu qazanmasında yerli əhalinin və ziyalıların, xüsusilə ictimai-siyasi xadim Behbud ağa Şahtaxtinskinin böyük xidmətləri olmuşdur. Görkəmli diplomat 1920-ci il dekabrın 1-də Bakı Soveti tərəfindən Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi barədə elan olunmuş bəyanatı kəskin hiddətlə qarşılamış və bu qərarın əleyhinə çıxaraq Naxçıvanda mitinqlər yolu ilə xalqı ayağa qaldırmışdı. Onun təşəbbüsü ilə 1921-ci ilin yanvarında keçirilmiş rəy sorğusunda əhali Naxçıvanın muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs vermişdi. Behbud ağa Şahtaxtinskinin Vladimir Leninə yazdığı məktub və teleqramlarda bolşevik hakimiyyətinin Şərq siyasətində yol verdiyi səhvlər və Naxçıvanın Azərbaycanın tərkibində saxlanılması məsələləri cəsarətlə diqqətə çatdırılmışdır. O qeyd edirdi ki, "Naxçıvan diyarı böyük siyasi, iqtisadi və strateji əhəmiyyətə malikdir... Bu diyarın Ermənistana verilməsi xalqın özünütəyin prinsipini və Sovet Azərbaycanının hüquqlarını pozur".

Ali Məclisin Sədri demişdir: O zaman Azərbaycan Xalq Komissarları Sovetinin sədri işləyən görkəmli dövlət xadimi Nəriman Nərimanov da Naxçıvan məsələsinə diqqət yetirmiş, xüsusilə onun adından Behbud ağa Şahtaxtinskinin Moskvada atdığı addımlar, Moskva və Qars danışıqları ərəfəsində Türkiyə nümayəndəliyi ilə aparılan müzakirələr Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi kimi saxlanmasını təmin etmişdir. Moskva və Qars müqavilələrini məhz Nəriman Nərimanovun və Behbud ağa Şahtaxtinskinin ideya və əməl birliyinin mühüm tarixi nəticəsi kimi də dəyərləndirmək lazımdır. Ümummilli liderimiz Heydər Əliyev də deyirdi ki, ***"Moskva və Qars müqavilələrində Naxçıvanın müqəddəratını o illərdə həll etmək asan vəzifə deyildi. Amma o vaxt milli mənafeyi qoruyan adamlar bunu etdilər. Mən bunu tarixi nailiyyət hesab edirəm".*** Həmin dövrdə qardaş Türkiyənin tutduğu ədalətli mövqe də qeyd olunmalıdır. Türkiyə xalqının böyük öndəri Mustafa Kamal Atatürkün ***"Naxçıvan türk qapısıdır. Bunu xüsusən nəzərə alaraq əlinizdən gələni edin"***, – tələbi türk nümayəndə heyəti tərəfindən Moskva və Qars müqavilələri ilə bağlı aparılan müzakirələrdə diqqətdə saxlanılmış, Azərbaycanın mövqeyi birmənalı şəkildə dəstəklənmişdir.

"1921-ci ilin 16 martında imzalanan Moskva müqaviləsi ilə Türkiyənin Rusiya ilə mübahisəli məsələləri həll olunsa da, Cənubi Qafqaz respublikaları arasındakı ərazi-sərhəd məsələləri həll olunmamışdı. Ona görə də bu məsələlərin də həlli üçün yeni bir konfransın keçirilməsi və müqavilənin imzalanması zəruri idi", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, 1921-ci il oktyabrın 13-də Rusiyanın iştirakı ilə Azərbaycan, Ermənistan və Gürcüstan Sovet Sosialist respublikaları ilə Türkiyə arasında müddətsiz imzalanmış Qars müqaviləsi 1922-ci ilin mart-iyun aylarında müqaviləni imzalayan ölkələrin qanunvericilik orqanlarında təsdiq edilmiş və həmin il sentyabrın 11-dən qüvvəyə minmişdir. Bununla da Qars müqaviləsi Naxçıvanın ərazisini və bu ərazinin beynəlxalq müqavilə ilə qorunan toxunulmazlıq hüququnu təsbit etmişdir. Müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın statusu ilə bağlıdır. Həmin maddədə yazılır: "Türkiyə hökuməti, Azərbaycan və Ermənistan Sovet respublikaları müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gəlirlər". Qardaş Türkiyə də Qars müqaviləsini imzalamaqla xarici siyasətində növbəti qələbə əldə etmiş, Sevr müqaviləsinin şərtləri qüvvədən düşmüşdür. Mustafa Kamal Atatürk bunu belə dəyərləndirmişdir: ***"Azərbaycan, Gürcüstan, Ermənistan Sovet respublikaları ilə Moskva müqaviləsinin əsasları çərçivəsində Qarsda 13 oktyabr tarixli müqavilə imzaladıq. Bu müqavilə ilə Şərqdə hüquqi bir şəkil alan indiki vəziyyətimiz Sevr müqaviləsinin tətbiqinin qeyri-mümkün olduğunu göstərən reallıqlardan biridir".*** Beləliklə, Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi, görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin prinsipial mövqeyi, Türkiyə hökumətinin məsələyə ədalətli yanaşması nəticəsində 1921-ci ildə Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasını şərtləndirən beynəlxalq Moskva və Qars müqavilələri imzalanmışdır.

Qeyd olunmuşdur ki, tarixi proseslərin sonrakı inkişafının nəticəsi olaraq 1921-ci ilin martında Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü ilin iyununda Naxçıvan diyarı, 1924-cü il fevralın 9-da isə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaradılmışdır. Qars müqaviləsindən və muxtariyyət statusundan sonra da Ermənistan müəyyən bəhanələrlə Naxçıvana qarşı ərazi iddialarını davam etdirmişdir. Sovetlər Birliyi dövründə Naxçıvan Muxtar Respublikasının beynəlxalq Qars müqaviləsi ilə təsbit edilmiş bir sıra kəndləri Ermənistan tərəfindən qanunsuz olaraq zəbt olunmuşdur. Sovetlər Birliyi dağıldıqdan sonra isə Ermənistan Azərbaycana, o cümlədən Naxçıvana qarşı ərazi iddialarını müharibə yolu ilə gerçəkləşdirməyə başlamış, əsrin əvvəllərində Qars müqaviləsi ilə üzərinə götürdüyü hüquqi və siyasi öhdəliyə məhəl qoymamışdır. Lakin 1990-1993-cü illərdə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanda yaşayıb siyasi fəaliyyət göstərməsi muxtar respublika ərazisini erməni işğalından və muxtariyyət statusunu ləğv olunmaq təhlükəsindən qorumuş, Naxçıvanın adından "Sovet, Sosialist" sözləri çıxarılmış, üçrəngli bayrağımız 70 ildən sonra ilk dəfə Naxçıvanda qaldırılmışdır. Bir sözlə, dahi rəhbərin həmin illərdə milli müstəqillik yolunda atdığı addımlar Naxçıvanı qorumaqla yanaşı, həm də, bütövlükdə, Azərbaycan xalqının qurtuluş tarixinin əsasını qoymuşdur.

Ulu öndər 1992-ci ildə Türkiyəyə səfəri zamanı Qars müqaviləsini yenidən gündəmə gətirmiş, iştirakçı dövlətləri muxtar respublikanın ərazi bütövlüyünün erməni təcavüzü nəticəsində kobud şəkildə pozulması faktına münasibət bildirməyə çağırmışdır. Ölkəmizə rəhbərliyi dövründə də ümummilli lider bu məsələni daim diqqətdə saxlamış, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında muxtariyyətin əsaslarının beynəlxalq Moskva və Qars müqavilələri ilə təsbit edildiyi öz əksini tapmışdır. Həmçinin dahi şəxsiyyətin "Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin keçirilməsi haqqında" 4 fevral 1999-cu il tarixli Fərmanında da Qars müqaviləsinin və Naxçıvanın muxtariyyət statusunun əhəmiyyəti bir daha vurğulanmışdır. Fərmanda da qeyd olunduğu kimi, ***Naxçıvanın statusunun beynəlxalq müqavilədə əks olunması həm o dövrdə, həm də Azərbaycanın indiki dövründə böyük siyasi əhəmiyyət kəsb edən bir fakt kimi qiymətləndirilməlidir.***

Ali Məclisin Sədri demişdir: Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında Qars müqaviləsi və Naxçıvanın muxtariyyət tarixi ilə bağlı geniş elmi tədqiqatlar aparılmış, Gümrü, Moskva və Qars müqavilələri Azərbaycan, türk, rus və fransız dillərində nəşr olunmuşdur. 2011-ci ildə Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyi və beynəlxalq Qars müqaviləsinin 90-cı ildönümü münasibətilə elmi konfrans keçirilmiş, onlarla kitab və məqalə işıq üzü görmüş, Naxçıvan Muxtar Respublikasının Moskva və Qars müqavilələri ilə təsbit olunmuş xəritələri hazırlanmışdır.

"Qars müqaviləsindən 100 il sonra – 2021-ci il iyunun 15-də Azərbaycan və Türkiyə prezidentlərinin imzaladıqları Şuşa Bəyannaməsi iki dost və qardaş ölkənin Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq etdi", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, Şuşa Bəyannaməsi Qars müqaviləsinin məntiqi davamı olmaqla, Cənubi Qafqazda münasibətlərin yeni istiqamətdə inkişafının əsasını qoymuşdur. Bu gün istisnasız olaraq qeyd etməliyik ki, həm Qars müqaviləsi, həm də Şuşa Bəyannaməsi regionda sülhə, sabitliyə və əməkdaşlığa təminat verən mühüm tarixi-hüquqi sənədlərdir. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"Birgə Bəyannamədə tarixi Qars müqaviləsinə istinad edilir. Tarixi Qars müqaviləsi düz 100 il bundan əvvəl imzalanmışdır. Bu da böyük rəmzi məna daşıyır. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir".***


*Ardı 2-ci səhifədə*

Ali Məclisin Sədri Qars müqaviləsinin imzalanmasında böyük xidmətləri olan tarixi şəxsiyyətlərin və Naxçıvanın müdafiəsində fədakarlıq göstərən vətənpərvər insanların xatirəsini ehtiramla yad etmiş, müqavilənin 100 illik yubileyi münasibətilə tədbir iştirakçılarını və bütün muxtar respublika əhalisini təbrik etmişdir.

Tədbirdə Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz çıxış edərək demişdir ki, tarixdə sülh və sabitlik gətirən bütün müqavilələr uzunsürən hərbi və siyasi mübarizələr nəticəsində imzalanmış və həyata keçirilmişdir. Qars müqaviləsinin imzalanması da 1918-1921-ci illərdə Türkiyə və Azərbaycanın birlikdə hərəkət etməsi və on minlərlə qəhrəman oğulların mübarizəsi ilə mümkün olmuşdur. 1877-1878-ci illərdə Osmanlı-Rusiya müharibəsindən sonra Qars, Ankara və Batumi vilayətləri Rusiyaya verilmişdir. Birinci Dünya müharibəsinin ən qanlı döyüşlərindən biri də Sarıqamışda olmuş, yüz minlərlə türk və müsəlman əsgəri şəhid olmuş və ya əsir düşmüş, müharibədən sonra Şərqi Anadolu rus işğalına və erməni qətliamlarına məruz qalmışdır. 1917-ci ildə Rusiyada baş verən inqilab nəticəsində türk ordusu işğal altındakı şəhərləri azad etməyə başlamışdır. 1920-ci il sentyabrın 28-də Kazım Qarabəkir Paşanın tabeliyində olan türk birlikləri düşmənə qarşı hücuma keçmiş, Naxçıvanda təşkil edilən könüllü dəstələr də hücuma qoşulmuşlar. 1920-ci il oktyabrın 30-da Qars şəhəri işğaldan azad edilmiş, türk ordusu həmin ilin 7 noyabrında Gümrüyə daxil olmuşdur. Nəhayət, ermənilər noyabrın 18-də atəşkəsə razı olmuş, Naxçıvanı tərk etmişlər. Türk ordusunun zəfəri 1920-ci il dekabrın 2-də Gümrüdə imzalanan sülh müqaviləsi ilə nəticələnmişdir. Bu müqavilənin önəmli cəhətlərindən biri Ermənistanın rəsmi olaraq Türkiyə və Naxçıvan üzərindəki iddialarından əl çəkməsi olmuşdur.

Baş konsul demişdir ki, 1921-ci il 16 martda Moskva, 13 oktyabrda isə Qars müqaviləsi imzalanmışdır. Beləliklə, Ermənistanın bolşevik hökuməti mövcud Türkiyə-Ermənistan sərhədini və Naxçıvanın bugünkü statusunu rəsmən qəbul etmişdir. 1918-1921-ci illərdə Türkiyə və Azərbaycan arasındakı əlaqələr sayəsində hərbi və diplomatik uğurlar qazanılmış, 100 il sonra isə sülhün və sabitliyin təminatı olan daha bir sənəd – Şuşa Bəyannaməsi imzalanmışdır. Türkiyə və Azərbaycan ulu öndər Heydər Əliyevin ***"Bir millət, iki dövlət"*** fikrini rəhbər tutaraq əlaqələrini bütün sahələrdə inkişaf etdirməyə qərarlıdır. İmzalanan Şuşa Bəyannaməsi də bu qərarlılığın əyani göstəricisidir. İki dövlət arasındakı yaxın əlaqələr dünən olduğu kimi, bu gün də bölgədə əbədi sülhün və sabitliyin təminatıdır. Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğanın dediyi kimi:***"Azərbaycan bölgənin əsl potensialının həyata keçirilməsinə mane olan işğalı şanlı Zəfəri ilə sona çatdırdı, BMT Təhlükəsizlik Şurasının illərdir, tətbiq olunmayan qətnamələrini özü həyata keçirdi. Davamlı sülhün təmin olunması və arzu edilən normallaşma istiqamətində irəliləyişin olması üçün şərait bu gün əvvəllər olmadığı qədər əlverişlidir. Bunun üçün bölgədəki yeni duruma uyğun hərəkət edilməlidir. Biz bölgədə davamlı sülhün və əhatəli normallaşmanın tərəfdarıyıq".***

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev Ali Məclis Sədrinin müvafiq Sərəncamı ilə Qars müqaviləsinin 100 illik yubileyinin qeyd olunmasına görə ziyalılar adından minnətdarlıq edərək demişdir: Sovet Rusiyası ilə Türkiyə hökumətinin yaxınlaşması 1921-ci ilin fevral-mart aylarında Moskva konfransı, son nəticədə, Moskva müqaviləsi ilə yekunlaşdı. Müqavilədə bir sıra məsələlərlə yanaşı, Naxçıvanın Azərbaycanın himayəsində muxtariyyət statusu əldə etməsi və bu himayəçiliyi üçüncü dövlətə güzəştə getməyəcəyi məsələsi öz əksini tapdı. Lakin Türkiyənin Cənubi Qafqaz respublikaları arasındakı ərazi-sərhəd məsələləri həll olunmamış qalırdı. İştirakçı dövlətlərin razılığı ilə 1921-ci il sentyabrın 26-dan oktyabrın 13-dək Qars şəhərində beynəlxalq konfrans keçirildi. Konfrans zamanı Azərbaycana aid ən mühüm məsələlərdən biri Naxçıvanla bağlı idi. 1921-ci il oktyabrın 13-də Sovet Rusiyasının nümayəndəsinin iştirakı ilə Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələri Türkiyə diplomatları ilə Qars müqaviləsini imzaladılar. Tərəflər Türkiyənin 1920-ci il yanvarın 28-də Türk Milli Aktına daxil edilən əraziləri qəbul edirdilər. Qars müqaviləsinin beşinci maddəsi və üçüncü əlavəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi, onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Bununla da Ermənistan müqaviləni imzalamaqla öz üzərinə siyasi-hüquqi öhdəlik götürərək bölgədəki ölkələrə qarşı ərazi iddialarından əl çəkirdi. Müqaviləyə əsasən Naxçıvan ərazisi Urmiya kəndindən başlayır, oradan düz xətlə Arazdəyən stansiyasına, Qərbi və Şərqi Daşburun dağı, Cəhənnəmdərəsi çayı, Bağırsaq dağı, keçmiş İrəvan, Şərur-Dərələyəz qəzalarının sərhədi, Kömürlü dağı, Sayatdağ, Qurdqulaq kəndi, Həməsür dağı, Kükü dağı və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədində qurtarırdı. Qars müqaviləsi imzalandıqdan sonra Naxçıvan bölgəsi Sovet Sosialist Respublikası elan olunmasına baxmayaraq, Ermənistan Qars müqaviləsinin bu maddəsindən müəyyən bəhanələrlə imtina etməyə cəhd göstərir, Naxçıvana qarşı ərazi iddiaları ilə çıxış edirdi. Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarları ilə 1929-1931-ci illərdə Naxçıvan MSSR-in ərazisinin 657 kvadratkilometrlik hissəsi qanunsuz olaraq Ermənistana verilmişdir. Sonrakı illərdə də bir sıra ərazilər Ermənistana birləşdirilmişdir. Qars müqaviləsi bütün XX əsr boyu öz müsbət rolunu oynamış və XXI əsrdə də bu davam edir. Təsadüfi deyildir ki, 44 günlük Vətən müharibəsi qalibiyyətlə başa çatandan sonra 2021-ci il iyunun 15-də Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi iki dost və qardaş ölkənin Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq etdi.

İsmayıl Hacıyev Qars müqaviləsinin imzalanması, həmin dövrdə regionda baş verən proseslər barədə geniş məlumat vermiş, çıxışını Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fikirləri ilə tamamlamışdır: ***"Qars müqaviləsi Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir. Qars müqaviləsinin imzalanması və Naxçıvanın muxtariyyət statusunun təsbit olunması dövlətçilik tariximizdə mühüm mərhələdir. Bu tarixin öyrənilməsi və gələcək nəsillərə çatdırılması isə bütün dövrlər üçün aktual və vacibdir".***

Tədbirdə Qars müqaviləsinin 100 illiyi münasibətilə hazırlanmış sənədli filmə baxış olmuşdur.

Sonra Ali Məclisin Sədri, Türkiyənin Naxçıvandakı Baş konsulu və tədbir iştirakçıları Qars müqaviləsinin 100 illiyi münasibətilə hazırlanmış sərgiyə baxmışlar.

Sərgidə "Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında" 2021-ci il 8 fevral tarixli Sərəncamın və "Tədbirlər Planı"nın mətni, Azərbaycan, rus, türk və fransız dillərində nəşr olunmuş "Qars müqaviləsi", "Şuşa Bəyannaməsi", "Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan", "Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi", "Gümrü, Moskva və Qars müqavilələri", "Behbud ağa Şahtaxtinski", "Araz-Türk Cümhuriyyəti", "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində", "Moskva və Qars beynəlxalq müqavilələri", "Mustafa Kamal Atatürk və Naxçıvan", "Behbud ağa Şahtaxtinski və Qars müqaviləsi", "Rusiya və Türkiyənin Cənubi Qafqaz siyasətində Naxçıvan (XX əsrin əvvəlləri)" və digər kitablar, "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının Qars müqaviləsinə həsr olunmuş nömrələri, Naxçıvan Muxtar Respublikasının Moskva və Qars müqavilələri ilə təsbit olunmuş xəritələri, poçt markaları, qəzetlər və sənədli filmlər nümayiş olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Dövlət proqramının icrası təmin olunur

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2019-cu il 9 avqust tarixli Sərəncamla təsdiq edilmiş "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"da Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinə verilmiş vəzifələr və qarşıya qoyulmuş tapşırıqların icrası istiqamətində 2021-ci ilin üçüncü rübündə işlər davam etdirilib.

Mövcud rəqəmsal ödəniş infrastrukturunun daha da təkmilləşdirilməsi ilə bağlı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi ilə birlikdə 35 POS-terminal aparatı quraşdırılıb, ümumi POS-terminal aparatlarının sayı 760 ədədi Naxçıvan şəhərində, 742-si isə rayon və kənd mərkəzlərində olmaqla, 1502-yə çatdırılıb, ödəniş terminallarının sayı 5 vahid artaraq 102, bankomat aparatlarının sayı isə 109 ədəd təşkil edib. Bu dövrdə nağdsız ödənişlərin həcmi 29 milyon 672 min 50 manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5 milyon 708 min 755 manat çoxdur.

Müvafiq dövlət orqanları ilə birlikdə 2022-ci ilədək özəl sektorda çalışan işçilərin əməkhaqlarının nağdsız formada (ödəniş kartları vasitəsilə) ödənişinin başa çatdırılması üçün vergi orqanları tərəfindən vergiödəyicilərini və sahibkarları maarifləndirmə işləri aparılıb və 2021-ci ilin üçüncü rübündə özəl sektorda 7 vergiödəyicisi üzrə 18 işçinin əməkhaqqının ödəniş kartları vasitəsilə ödənilməsi təmin edilib.

Dövlət proqramına əsasən muxtar respublika ərazisində fəaliyyət göstərən POS-terminal quraşdırılmış ticarət, iaşə və digər xidmət obyektləri sahiblərinin ödəniş kartları ilə təmin edilməsi, həmin şəxslər tərəfindən fəaliyyət göstərdiyi sahələr üzrə vergilərin, sosial ayırmaların, sığorta məbləğlərinin, kommunal xərclərin və dövlət büdcəsinə digər ödənişlərin tamamilə nağdsız şəkildə ödənilməsi üçün ödənişlərin dövlət büdcəsinə onlara məxsus ödəniş kartları vasitəsilə nağdsız aparılması ilə bağlı yerlərdə maarifləndirici tədbirlər keçirilib, qeyd edilən dövrdə 164 vergiödəyicisi tərəfindən POS-terminal hesabına alınmış kartlar vasitəsilə 88 min 798 manat, 369 vergiödəyicisi tərəfindən isə öz şəxsi kartları (şəxsi istifadə, birkart, təqaüd və sair kartlar) vasitəsilə 162 min 235 manat vergi, sosial və dövlət büdcəsinə digər ödənişlər nağdsız qaydada ödənilib.

Xidmət mərkəzləri və POS-terminal quraşdırılmış kənd mərkəzlərində üçüncü rüb üzrə sahibkarlıq subyektləri və vətəndaşlarla 14 halda maarifləndirici görüşlər keçirilib. İyul ayında 2021-ci ilin birinci yarım ilinin nəticələrinə uyğun olaraq daha çox nağdsız ödənişlər aparan vətəndaşlar arasında "Nağdsız ödəyin, hədiyyə qazanın!" adlı həvəsləndirici tədbirin 15-ci tirajı keçirilib və muxtar respublika üzrə 445 vətəndaşa 25 min manat dəyərində müxtəlif hədiyyələr təqdim edilib.

Dövlət proqramının icrası ilə əlaqədar Dövlət Vergi Xidmətinin qarşısına qoyulan tapşırıqların icrası daim diqqət mərkəzində saxlanılmaqla, muxtar respublikada nağdsız ödənişlərin genişləndirilməsi və ümumi iqtisadiyyatın inkişaf etdirilməsi istiqamətində işlər davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

***İqtisadiyyatın hərtərəfli inkişafını təmin etmək, yüksək texnologiyalar əsasında sənayenin davamlı inkişafına və şaxələndirilməsinə nail olmaq iqtisadi siyasətin əsas məqsədlərindən biridir. Son illər müasir dövrün tələblərinə uyğun həyata keçirilən uğurlu siyasət davamlı iqtisadiyyatın sənayeləşməsini və innovativ istehsalın inkişaf etdirilməsini daha da sürətləndirib. Belə ki, muxtar respublikada iqtisadiyyatın digər sahələri ilə yanaşı, sənayenin inkişafına da xüsusi önəm verilir, mövcud təbii və iqtisadi resursların istehsala cəlb edilməsi, qabaqcıl texnologiyaların daha geniş tətbiqi üçün sistemli tədbirlər həyata keçirilir.***

## Muxtar respublikada sənayenin və innovativ istehsalın inkişafı daha da sürətləndirilib

Sənayenin daha sürətlə və innovativ inkişafını təmin etmək üçün biznes sektoruna müəyyən güzəştli kreditlərin və yardımların edilməsi və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün xidmətlərin təşkili bu sahənin inkişafını daha da sürətləndirir, sənaye müəssisələrində rəqabətədavamlı məhsul istehsalına təkan verir. Sənayeləşmə siyasətinə uyğun olaraq daxili tələbatın ödənilməsində yerli məhsulların payını əhəmiyyətli dərəcədə artıran və ixrac imkanlarını genişləndirən yüzlərlə müasir sənaye müəssisələri, yeni istehsal sahələri, o cümlədən sənaye məhəlləsi yaradılır.

Ölkə Prezidentinin müvafiq fərmanına əsasən 2019-cu ildə muxtar respublikada sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, özəl sektorun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə Şərur Sənaye Məhəlləsi yaradılır. Xidmət infrastrukturunun inkişaf etməsi, eləcə də sosial-iqtisadi inkişafın mühüm göstəricilərinə görə muxtar respublikanın ərazicə ən böyük rayonlarından olan Şərurda sənaye məhəlləsinin formalaşması üçün geniş imkanlar və gələcək perspektivlər mövcuddur.

Üç istehsalat korpusundan ibarət olacaq sənaye məhəlləsində ilkin olaraq bitki yağı, süd emalı, meyvə-tərəvəzin konservləşdirilməsi və tomat istehsalı, ofis ləvazimatları, kağız-torba, corab istehsalı sahələrinin yaradılması nəzərdə tutulmuşdur. Bu, həmin məhsulların idxalının azaldılmasında mühüm rol oynamaqla, ixracın və rəqabət qabiliyyətinin artırılmasında da xüsusi əhəmiyyət daşıyacaqdır.

Son illər ərzində rayon və kəndlərdə kənd təsərrüfatı təyinatlı istehsal və xidmət sahələrinin yaradılması yerli resurslardan səmərəli istifadəni və məşğulluq səviyyəsinin yüksəldilməsini təmin edib. Bu istiqamətdə Sahibkarlığın İnkişafı Fondunun xətti və sahibkarların şəxsi təşəbbüsü ilə rayonlarda daha çox mikro və kiçikhəcmli layihələrin reallaşdırılmasına başlanılıb.

Yerli xammaldan istifadə imkanlarının artırılması, istehsalın ərazi və xammal prinsipləri üzrə səmərəli yerləşdirilməsi sahəsində dövlət maliyyə dəstəyi ilə muxtar respublikanın kəndlərində süd məhsullarının emalı əsasında xama, pendir, lavaş, kompot, balın emalı, meyvəqurutma, fərdi quşçuluq, bağçılıq, üzümçülük, tərəvəz və limon istixana kompleksləri, soyuducu anbar və bu kimi çoxsaylı kiçikhəcmli istehsal sahələri yaradılıb. Belə ki, cari ildə verilən kreditlərin 32,5 faizi kiçikhəcmli layihələrin payına düşüb.

Son illər muxtar respublikamızda həyata keçirilən abadlıq-quruculuq işləri kənd və qəsəbələrimizi də əhatə edib, minlərlə sosial infrastruktur obyektləri istifadəyə verilib. Bunun müqabilində sahibkarlar da üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməli, öz fəaliyyətləri ilə dövlət siyasətinə dəstək verməlidirlər. Çünki onların hər bir müəssisə dövlətimizin iqtisadi gücünü artırmaqla yanaşı, yeni iş yerlərinin açılması və əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması deməkdir. Bu baxımdan kiçik və orta həcmli layihələrin icrası böyük önəm daşıyır.

Daxili bazarın qorunması, əhalinin tələbatının daha keyfiyyətli məhsullarla ödənilməsi məqsədilə yerli resurslar və satış bazarının mövcud olması nəzərə alınmaqla iqtisadi cəhətdən səmərəli hesab edilən istehsal sahələrinin yaradılması istiqamətində Rusiya, Çin, Hindistan, İtaliya, Türkiyə şirkətləri ilə əlaqələr yaradılaraq 17 layihə alınaraq texniki iqtisadi göstəriciləri araşdırılıb



və sahibkarlarla təqdimatı keçirilib.

Təqdimatı keçirilən layihələr içərisində orqanik gübrə, minişərab, mismar, plastik taralar, velosiped, sabun, yun iplik, tibbi pambıq, ipliklərin təbii boyaqlarla boyanması, gülab, yumurta tarası, qurudulmuş və dondurulmuş meyvə-tərəvəz, yabanı meyvə və tərəvəz məhsullarının konservləşdirilməsi, arıçılıq məhsullarının emalı sahələrinin, damazlıq təsərrüfatlarının yaradılması, ət kəsim və heyvandarlıq məhsulları tədarükü məntəqələrinin, avtoservis, turizm və əyləncə sahələrinin yaradılması, o cümlədən idman sahəsində pullu xidmət növlərinin yaradılması daha məqsədəmüvafiq hesab edilib.

Hazırkı dövrdə muxtar respublikamızda sənayenin yeni modellərin tətbiqi ilə inkişaf etdirilməsi ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin inkişafına və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasına yeni imkanlar açır. Məhz bu səbəbdən sənayeləşmə siyasəti xeyli vaxtdır ki, muxtar respublikanın iqtisadi inkişafının əsas istiqamətlərindən biri elan olunub və sözügedən istiqamətdə mühüm tədbirlərin icrası daha da sürətləndirilib.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Zəngəzur dəhlizi dünyanın nəqliyyat xəritəsini yenidən formalaşdıracaq

## *Bu dəhliz Naxçıvanın iqtisadi əlaqələri ilə yanaşı, xidmət sektorundakı əməkdaşlığını da inkişaf etdirəcək*

*Ötən il başlanan və 44 gün davam edən Vətən müharibəsində ölkəmiz işğal altındakı torpaqlarını azad etməklə yanaşı, mühüm bir uğura da imza atdı. Belə ki, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin birgə imzaladıqları 10 noyabr anlaşmasına əsasən Azərbaycanın qədim Zəngəzur ərazisindən Naxçıvana, Türkiyəyə quru yolunun təmin edilməsi, nəqliyyat və kommunikasiya dəhlizinin açılması nəzərdə tutulur. Müharibədən sonra yaranmış yeni reallıqlar, o cümlədən Zəngəzur dəhlizi ilə bağlı Prezident cənab İlham Əliyev tərəfindən indiyədək çox sayda açıqlamalar verilib. Ölkə başçısı demişdir:* ***"Bu gün bizim bölgəmizdə yeni vəziyyət yaranmışdır, yeni reallıq yaradılmışdır. Artıq Dağlıq Qarabağ münaqişəsi tarixdə qaldı, artıq həll edildi, bitdi. İndi gələcəyə baxmalıyıq və bölgəmizdə əməkdaşlıq haqqında düşünməliyik, xüsusilə nəqliyyat layihələrinin həyata keçirilməsi, Zəngəzur dəhlizinin açılması çox önəmli məsələlərdən biridir. Əminəm ki, birgə səylərlə buna da nail olacağıq".***



Azərbaycan və Türkiyə respublikalarının prezidentləri bu il iyunun 15-də Şuşa Bəyannaməsinin imzalanma mərasimindən sonra mətbuata birgə bəyanatlarla çıxış edərkən də bu barədə ətraflı bəhs olunub. Dövlətimizin başçısı bəyanatında vurğulamışdır: ***"Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapmışdır. Bu da İkinci Qarabağ savaşından sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Bu gün biz Türkiyəni və Azərbaycanı dəmir yolu ilə, avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, bu dəhlizi əməli işlərlə yaradırıq. Müttəfiqlik haqqında imzalanmış Birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır".***

Türkiyə Prezidenti Rəcəb Təyyib Ərdoğan isə bəyanatında Şərqdən Qərbə hər kəsin istifadə edə biləcəyi yeni bir ortaq dəhliz açılacağını, bunun çox böyük əhəmiyyət kəsb edəcəyini bildirib. Yeri gəlmişkən, Şuşa Bəyannaməsində Zəngəzur dəhlizinin davamı kimi, Naxçıvan-Qars dəmir yolunun tikintisinin də Azərbaycanla Türkiyə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyi öz ifadəsini tapıb.

Ümumiyyətlə, Zəngəzur dəhlizi layihəsi təkcə Naxçıvanla Azərbaycanın digər bölgələri arasında nəqliyyat körpüsü deyil, bu, region ölkələrinə iqtisadi imkanları artırmağa da şərait yaradacaq. Azərbaycan və Türkiyə prezidentlərinin təklif etdiyi altılıq platforma da region ölkələrinə faydası ilə yanaşı, həm də faktiki olaraq Ermənistanın iqtisadi və nəqliyyat blokadasından çıxarılmasına yeni qapı açır.

Şuşa Bəyannaməsində Zəngəzur dəhlizi layihəsinə xüsusi önəm verilməsinin səbəbi də dəhlizin Azərbaycan və Türkiyə üçün məxsusi əhəmiyyət daşımasından irəli gəlir. Nəzərə alaq ki, hazırda qardaş Türkiyə Respublikasının Mərkəzi Asiya ölkələri və dünyanın ikinci böyük iqtisadi gücü sayılan Çinlə xarici ticarət dövriyyəsi (Mərkəzi Asiya ölkələri ilə 6 milyard, Çinlə 21 milyard təşkil edir) durmadan artır və qardaş ölkənin yaxın illərdə bu həcmi artıracağı da artıq mühüm hədəf kimi qarşıya qoyulub. Bu dəhliz, eyni zamanda Çinin "Bir kəmər, bir yol" layihəsinin davamı kimi də dəyərləndirilir. Belə ki, Zəngəzur dəhlizi Çinə Orta Asiya-Azərbaycan-Türkiyə-Avropa tranzit-nəqliyyat xəttindən istifadə etmək imkanı yaradır.

Azərbaycana gəldikdə isə Zəngəzur dəhlizi ölkəmizi hər iki qitə arasında mühüm iqtisadi tərəfdaşa çevirir. "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin də buradan keçməsini nəzərə alsaq, Azərbaycan dünyanın ən nəhəng logistik qovşaqlarından birinə çevrilməklə, təkcə dünya iqtisadi sistemində deyil, qlobal siyasi müstəvidə də əlavə nüfuz qazanacaq.

Həmçinin bu dəhliz ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının faktiki olaraq nəqliyyat-kommunikasiya əlaqələrini tamamilə bərpa edəcək. Bu il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Azərbaycan Prezidenti Ordubad rayonunda olarkən demişdir: ***"Mən təsadüfən Ordubad dəmiryol stansiyası ilə tanışlığa gəlməmişəm. Çünki bunun da çox böyük rəmzi mənası var. Bu yaxınlarda buradan, təqribən, 56-60 kilometr uzaqlıqda yerləşən Mincivan qəsəbəsinin ermənilər tərəfindən dağıdılmış dəmir yolu stansiyasına baxış keçirdim. Orada dəmir yolu mövcud deyil. Mənfur düşmən bütün dəmir yolu infrastrukturunu dağıdıbdır, talan edibdir. Orada bir mərkəz olacaq, burada bir mərkəz olacaq. Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir, hansı ki, açılmalıdır və açılacaqdır".***

Naxçıvan Muxtar Respublikası blokada şəraitində yaşamasına baxmayaraq, özünün möhkəm iqtisadi əsaslarını yaradıb. Belə ki, bölgədə tikinti və nəqliyyat infrastrukturu tamamilə yenilənib, avtomobil və dəmir yolları yenidən qurulub, mühüm sənaye və kənd təsərrüfatı müəssisələri yaradılıb. Muxtar respublika ərazisi mühüm faydalı qazıntı yataqları ilə zəngin olduğundan və kənd təsərrüfatının hərtərəfli inkişafı yaradılan istehsal müəssisələrinin, demək olar ki, hamısının yerli xammalın emalı və istehsalı bazası üzərində qurulmasına imkan verib. Nəticədə, ötən dövrdə burada mühüm aqrar-sənaye istehsalına nail olunub. Təsadüfi deyil ki, 2020-ci ildə muxtar respublikada ümumi daxili məhsul istehsalının həcmi 3 milyard manata (2 milyard 907 milyon 810 min 500 manat) yaxınlaşıb, bu məhsulun tərkibində sənayenin payı 27,6 faiz təşkil edib. Aqrar sahəyə gəldikdə isə kənd təsərrüfatı məhsullarının istehsal həcmi son bir neçə ildə illik 4 faizdən yuxarı artımla ifadə olunur. Bu sahəyə aid məhsul istehsalı ötən il 537 milyon 584 min manat olub. 2020-ci ildə muxtar respublikanın xarici ticarət dövriyyəsində də pandemiya şərtlərini nəzərə alsaq, artım müşahidə olunur.

Təbii ki, Zəngəzur dəhlizinin açılması muxtar respublikanın xarici ticarət dövriyyəsinin həcminin artmasına da böyük təsir göstərəcək. Çünki daşınma xərclərinin aşağı düşməsi muxtar respublikanın ixrac qabiliyyətini daha da genişləndirəcək.

Burada mühüm istiqamətlərdən biri də yerli xidmətlərimizin ixracı ilə bağlıdır. Məlumdur ki, imkanlardan asılı olaraq milli iqtisadiyyatlar beynəlxalq xidmət bazarına müxtəlif çeşiddə xidmətlər təklif edə bilirlər. Bu xidmətlərə turizm və səyahət, rabitə, nəqliyyat, tikinti, maliyyə, biznes və sair daxildir. Bu sahələrin özü də çoxsaylı xidmət çeşidlərini özündə birləşdirir. Məsələn, reklam və bazar araşdırmaları, hüquq, mühasibatlıq, ictimai əlaqələr, İnformasiya Texnologiyaları xidmətləri, bank əməliyyaları və sair. Təkcə turizm sahəsini götürsək, deməliyik ki, son illərdə muxtar respublikada bu sahədə mühüm infrastruktur sahələri yaradılıb. Turizm xidmətlərində əvvəlki illərlə müqayisədə keyfiyyət amili ön plana keçib. Nəticədə, son illərdə muxtar respublikaya gələn turistlərin sayında artım region əhalisinin 80-90 faizi həddinə çatıb. Və yaxud nəqliyyat xidmətlərini götürək. 2020-ci ildə muxtar respublikada nəqliyyat sektorunda 16 milyon 757 min 600 ton yük, 103 milyon 568 min 400 sərnişin daşınıb. Kommunikasiyaların bərpası bu rəqəmlərin dəfələrlə artmasına imkan verəcək. Eləcə də rabitə, tikinti, bank-maliyyə və digər istiqamətlər üzrə də muxtar respublikanın əməkdaşlıq əlaqələrini genişləndirəcək.

Mühüm amillərdən biri də muxtar respublikanın investisiya cəlbediciliyinin artmasıdır. Vurğulamaq lazımdır ki, muxtar respublika ənənəvi sahələrlə yanaşı, innovativ investisiya layihələri (bərpa olunan enerji mənbələri, texnologiya parkları, ağıllı regional idarəetmə mərkəzləri və sair) üçün də əlverişlidir və artıq bu sahədə müəyyən təcrübələr var, o zaman regiona biznes maraqlarının artacağı da şübhəsizdir. Eyni zamanda müxtəlif sahələr üzrə yerli mütəxəssislərin yetişməsi də yeni biznes layihələrinin həyata keçirilməsinə şərait yaradır. Bütün bunlar isə yaxın illərdə muxtar respublikanın iqtisadi əlaqələri ilə yanaşı, xidmət sektorunda da əməkdaşlığının inkişafına öz müsbət təsirini göstərəcək.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğanın oktyabrın 26-da Azərbaycan Respublikasına rəsmi səfəri zamanı iki qardaş ölkənin başçıları tərəfindən Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun da təməlinin qoyulması bu dəhlizin açılmasını tezliklə reallaşdırmaq istiqamətində mühüm tarixi hadisə oldu. Həmin gün Zəngilanın Ağalı kəndində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxış etmişlər. Dövlətimizin başçısı çıxışında bu tarixi hadisəni belə dəyərləndirmişdir: ***"Bu gün burada, Zəngilanda olarkən, təbii ki, biz Zəngəzur dəhlizi haqqında danışmasaq düzgün olmaz. Zəngilan Şərqi Zəngəzur bölgəsində yerləşir və buradan keçən Zəngəzur dəhlizi bütün Türk dünyasını birləşdirəcək. Həm Azərbaycan, həm Türkiyə Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli addımlar atır. Əminəm ki, bu addımlar yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir.***

***Bu gün Əziz qardaşımla və qonaqlarla birlikdə böyük avtomobil yolunun təməlini qoyduq. Bu avtomobil yolu da Zəngəzur dəhlizinin bir hissəsidir. Bu avtomobil yolunun və dəmir yolunun çəkilişi nəticəsində biz istədiyimizə nail olacağıq".***

Heç şübhəsiz ki, Zəngəzur dəhlizi ilə Naxçıvana, oradan da İstanbula gedən yol Naxçıvanı yeni tranzit qovşağına çevirməklə diyarımızın Şərqin qapısı kimi iqtisadi, tranzit əhəmiyyətliliyini daha da artıracaq, muxtar respublikamızın sosial-iqtisadi inkişaf baxımından daha böyük uğurlar qazanmasına səbəb olacaq. 44 günlük Vətən müharibəsində əldə olunan, bir illiyini qeyd edəcəyimiz Tarixi Zəfər təkcə hərbi qələbə kimi deyil, gələcək möhtəşəm iqtisadi uğurları, beynəlxalq əməkdaşlıq çərçivəsindəki nailiyyətləri ilə də tarixə öz möhürünü vurmuş olacaq.

**Səbuhi HƏSƏNOV**

# Əcnəbilərin hüquqi vəziyyətinə dair tədbir



*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə əcnəbilərin hüquqi vəziyyətinə dair əcnəbi tələbələrlə növbəti maarifləndirici tədbir keçirilib.*

Naxçıvan Dövlət Universitetinin prorektoru Xəyal Camalov və Dövlət Miqrasiya Xidməti rəisinin müavini Elnur Məmmədov tədbirdə çıxış edərək bildiriblər ki, muxtar respublikamızda tədrisin müasir standartlara uyğunlaşdırılması, maddi-texniki bazanın möhkəmləndirilməsi və yenidən qurulması, habelə təhlükəsizliyin və ictimai-siyasi sabitliyin təmin edilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində reallaşdırılan məqsədyönlü tədbirlər, nəticə etibarilə, əcnəbi tələbələrin muxtar respublikaya olan marağının və burada təhsil almaq niyyətinin daha da artmasına təşviq edir.

Dövlət Miqrasiya Xidmətinin şöbə rəisi Kənan Məmmədov əcnəbi tələbələrə müvəqqəti yaşamaq üçün icazənin verilməsi proseduru barədə ətraflı məlumat verib. Vurğulanıb ki, miqrasiya proseslərinin idarə edilməsi və tənzimlənməsində innovativ metodların tətbiqi, habelə şəffaflığın təmin edilməsi prinsiplərini prioritet kimi müəyyən edən Dövlət Miqrasiya Xidməti fəaliyyətini müasir tələblər səviyyəsində quraraq əcnəbilərin hüquqi təminatçısına çevrilib.

Diqqətə çatdırılıb ki, bu gün muxtar respublikaya təhsil almaq məqsədilə gələn əcnəbilər təhsil almaqla bərabər, həm də ölkədə yaşama hüququna malik olurlar. Eyni zamanda Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə vəsiqələrinin verilməsinə və müddətinin uzadılmasına görə dövlət rüsumu ödənilən zaman tələbələr üçün güzəştlər də tətbiq olunur. Dövlət rüsumunun bu cür müəyyənləşdirilməsi ölkəmizdə əcnəbi tələbələrə göstərilən humanist mahiyyətin növbəti ifadəsi və nümunəsidir.

Bildirilib ki, muxtar respublikada icbari tibbi sığorta sisteminin tətbiqini ölkə vətəndaşları ilə yanaşı, əcnəbilərin də rifahına əsaslanan sosial siyasətin ən önəmli qolu hesab etmək olar.

Sonra xidmətin əməkdaşı Tural Bayramov əcnəbilərin muxtar respublika ərazisində olma və yaşama qaydalarının pozulmasına görə qanunvericilikdə nəzərdə tutulan məqamlara toxunub, slayd vasitəsilə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Universitetin Tibb fakültəsinin Əczaçılıq ixtisasının II kurs tələbəsi Roshat Koçkaya muxtar respublikada sənədləşmə prosesi və miqrasiya sahəsində yarana biləcək istənilən çətinlik qarşısında göstərilən köməyə görə əcnəbi tələbələr adından minnətdarlıq edib.

Sonra bir qrup əcnəbi tələbəyə müvəqqəti yaşamaq üçün icazə vəsiqələri təqdim olunub. Həmçinin tələbələrə xidmət tərəfindən hazırlanan bukletlər də verilib.

Qarşılıqlı diskussiya şəraitində keçən tədbirdə suallar ətraflı cavablandırılıb, xidmət əməkdaşları tərəfindən müvafiq müraciətlər qəbul olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən inzibati ərazi dairələri üzrə nümayəndələrin iştirakı ilə növbəti seminar Şahbuz rayonunda keçirilib.*

# Maarifləndirici seminar keçirilib



"Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatının və notariat hərəkətlərinin aparılmasında qanunvericiliyin tələbləri" mövzusunda keçirilən seminarda vurğulanıb ki, maarifləndirici tədbirin məqsədi qeydiyyat əməliyyatlarının həyata keçirilməsi zamanı məsul şəxslər tərəfindən qanunvericiliyin tələblərinə düzgün əməl edilməsinə köməklik göstərməkdir. Bu gün vətəndaşlıq vəziyyəti aktlarının rəsmiləşdirilməsi qeydiyyat şöbələri ilə yanaşı, inzibati ərazi dairələri üzrə nümayəndəliklərdə də həyata keçirilir. Qeydiyyat şöbəsi və inzibati ərazi dairəsi üzrə nümayəndəlikdə vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı üzrə kargüzarlığın aparılması qaydası müvafiq təlimata uyğun olaraq həyata keçirilir. Eyni zamanda notariat ofisləri olmayan yaşayış məntəqələrində müvafiq icra hakimiyyəti orqanları bir sıra notariat hərəkətləri aparırlar. Yerli icra nümayəndəlikləri öz vəzifələrini yerinə yetirərkən fiziki və hüquqi şəxslərə aparılan əməliyyatlarla bağlı onların hüquq və vəzifələrini izah etməlidirlər. Aparılan əməliyyatlar zamanı müraciət etmiş şəxslərin şəxsiyyəti müəyyən olunmalı, rəsmiləşdirmə zamanı vətəndaşların şəxsən iştirakı təmin edilməlidir.

Sonra mövzu ətrafında müzakirələr aparılıb, verilən suallara aydınlıq gətirilib. İştirakçılara "Muxtar respublika ərazisində yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndələri tərəfindən aparılan notariat hərəkətlərinin əsas məqamları barədə " məlumat bukleti paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

***Məlum olduğu kimi, oktyabr ayının 19-dan 24-dək Azərbaycan və onun Naxçıvan Muxtar Respublikasının Gənclər fondlarının, Türkiyə Gənclik Vəqfinin birgə təşkilatçılığı, ümumilikdə, 200-dən çox gəncin iştirakı ilə qardaş Türkiyə Respublikasının tarixi şəhəri olan Qaziantepdə ikinci "Azərbaycan-Türkiyə gənclərinin beynəlxalq Zəfər düşərgəsi" təşkil olunub. Məqsəd hər iki ölkə gənclərinin əməkdaşlığının daha da inkişaf etdirilməsi, ortaq həyata keçirilən layihələrin və tədbirlərin sayının artırılması, Azərbaycan və Türkiyə mədəniyyətinin, tarixinin gənclər arasında təbliği, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində qazanılan Zəfərin iki ölkənin gəncləri arasında təbliğ olunmasıdır. Beş gün ərzində iştirakçılar Qaziantep və Şanlıurfanın tarix və mədəniyyət abidələrini ziyarət edib, sözügedən şəhərlərin turizm obyektləri, ali təhsil ocaqları ilə tanış olublar.***

# Qalib ölkənin gəncləri Zəfər tonqalını Qaziantepdə alovlandırıblar



Oktyabrın 18-də media nümayəndəsi kimi Qaziantep şəhərində keçiriləcək adıçəkilən tədbirdə iştirak edəcəyimin xəbərini alıram. Bir çoxları kimi, mən də ilk dəfə idi ki, həmin şəhərə səfər edəcəyəm deyə, sevincli və qürurluyam. Vaxt-vədə gəlib çatır və Naxçıvandan, eləcə də ölkəmizin digər şəhər və rayonlarından olan fəal, istedadlı gənclər, şəhid övladları, qazilər və Vətən müharibəsinin iştirakçıları yola düşmək üçün təyin olunan ünvanda toplaşırlar. Naxçıvan şəhərinin tarixi məkanlarından olan "Milli yeməklər"də şam yeməyini yedikdən sonra uzun bir yola çıxırıq: Naxçıvandan, təxminən, 16-17 saatlıq bir məsafə... İştirakçıların təhlükəsiz şəraitdə gömrük-keçid məntəqələrindən yola salınması, gənclərin qidalanması, əyləncəli oyunlar, bir sözlə, təşkilatçılıq ən yüksək səviyyədədir. Şəhərləri, kəndləri bir-bir arxada qoyur, maraqlı anları, məqamları, görməli yerlərin görüntüsünü fotoaparatın və mobil telefonların yaddaşında tarixə çevirirk.

Budur, günorta saatlarıdır və biz artıq ünvandayıq – Qaziantepdəyik. "Şahinbəy konqre və sənət mərkəzi"ndə Zəfər düşərgəsinin açılış tədbiri təşkil olunur. Açılış mərasimində əvvəlcə hər iki dövlətin himnləri səsləndirilir və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunur. Tədbirdə Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev, Türkiyə Gənclik Vəqfinin icraçı direktoru Enes Eminoğlu və digər rəsmi şəxslər açılış nitqi söylədilər. Çıxışlarda bildirildi ki, Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı ümummilli lider Heydər Əliyevin ***"Bir millət, iki dövlət!"***, qardaş Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün ***"Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir!"*** tezislərinə söykənir. Birliyimizin, həmrəyliyimizin isə köklü tarixi, ənənələri vardır. Qeyd olundu ki, 44 günlük Vətən müharibəsində Azərbaycan ən böyük dəstəyi də məhz qardaş Türkiyədən gördü. Müharibənin ilk günündən dost ölkə Azərbaycanın haqq işinə dəstək verdi. Bu ilin iyun ayında dövlət başçılarının iştirakı ilə erməni işğalından azad olunmuş Şuşa şəhərində Şuşa Bəyannaməsinin imzalanması iki qardaş dövlət arasındakı münasibətlərin yeni müstəvidə inkişaf etdirilməsindən xəbər verir.

Çıxış edənlər bildirdilər ki, "Azərbaycan-Türkiyə gənclərinin Zəfər düşərgəsi" ilk dəfə bu ilin iyul ayında qədim Naxçıvan torpağında təşkil olunub. İkinci layihə isə Qaziantepdə reallaşdırılır. Düşərgənin bu şəhərdə baş tutması rəmzi xarakter daşıyır. Belə ki, 1921-ci ildə anteplilər qəhrəmanlıq mübarizəsi nümayiş etdirib, ingilis və fransız qüvvələrinə qarşı inadla vuruşaraq işğala imkan verməyiblər. Buna görə də sonralar şəhərə "Qazi" statusu verilib. Milli mübarizənin 100-cü ildönümündə Qaziantepdə Zəfər düşərgəsinin təşkil edilməsi hər iki xalqın qəhrəmanlıq salnaməsinin, yenilməz ruhunun gənclər arasında təbliğ olunmasına mühüm töhfədir.

Vətən müharibəsi iştirakçılarına və qazilərə hədiyyələr təqdim olunduqdan sonra hər iki xalqın milli musiqi nömrələri ifa edildi, xatirə şəkilləri çəkildi. Şam yeməyinin ardından iştirakçılar qalacaqları düşərgəyə yola düşdülər.

Proqrama uyğun olaraq Azərbaycan və Türkiyədən olan gənclər mərhələli şəkildə Qaziantepdəki Milli Mübarizə Muzeyində, dünyanın dördüncü ən böyük zooparkında, ali təhsil ocaqlarında, muzeylərdə, Mesopotamiyanın mərkəzi, Dəclə və Fərat çaylarının arasında yerləşən Şanlıurfanın məşhur Göbəklitəpə yaşayış yerində, eləcə də digər gəzib görməli yerlərdə oldular. Düşərgənin sonuncu günündə iştirakçılar Zəfər tonqalının ətrafında birləşdilər. Bu tonqal heç də quru odun parçalarının üst-üstə yığılıb alovlandırılması deyil. Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı da eynilə Zəfər tonqalı kimi istidir, hərarətlidir və heç vaxt sönən deyil. Dünyada bu dostluğu uzun illərdən bəri yaşadan və onu yeni çalarlarla zənginləşdirən nadir dövlətlər var. Türkiyə-Azərbaycan münasibətləri, bu mənada, nümunə kimi qəbul olunmalıdır. Fürsətdən istifadə edib bir araya toplaşan düşərgə iştirakçılarının təəssüratlarını da öyrəndik.

***Cövdət Əliyev – Babək rayonunun Kərimbəyli kənd sakini, qazi:*** "Əvvəla, təşkilatçılara dərin minnətdarlığımı bildirirəm. Bir qazi kimi, düşərgənin mənim üçün müstəsna əhəmiyyəti vardır. Burada türkiyəli dostlarımızla yaxşı vaxt keçirdik, onlara Vətən müharibəsində qazandığımız tarixi Qələbədən danışdıq, döyüş xatirələrimizi bölüşdük. Fəxr edirəm ki, torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişəm və Müzəffər Ali Baş Komandan tərəfindən orden və medallara layiq görülmüşəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Düşərgədə qalib ordunun qalib zabiti simasında iştirak edirəm. Bu adın, bu duyğunun əvəzi yoxdur. Yaşasın Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı!"



***Məhərrəm Həsənov – Naxçıvan Dövlət Universitetinin tələbəsi:*** "Beş gün ərzində özümüzü öz evimizdəki kimi hiss etdik. Türkiyəli dostlarımız gənclərin marağına səbəb ola biləcək yerləri düşərgə proqramına əlavə etmişdilər. Burada qazandığım təəssürat ömürboyu yaddan çıxan deyil. Yeri gəlmişkən onu da qeyd edim ki, "Azərbaycan-Türkiyə gənclərinin Zəfər düşərgəsi"nin birinci layihəsi Naxçıvanda, özü də çox möhtəşəm şəkildə baş tutmuşdu. İnanıraq ki, bu dostluq və qardaşlıq daim əbədi olacaq. Biz gənclər hər zaman bu birlik və bərabərliyin keşiyində dayanacağıq".

***Dilgün Əliyev – Ordubad rayonundan olan fəal gənc:*** "Çox xoşbəxtəm ki, Zəfər düşərgəsində iştirak edənlər sırasında mən də varam. Bu beş gün ərzində Qaziantepin ən maraqlı, gəzib-görməli yerlərində olduq. Bu mənim şəxsi fikrimdir ki, Naxçıvanla Qaziantep şəhərləri arasında oxşar xüsusiyyətlər vardır. Məsələn, naxçıvanlılar ötən əsrin 90-cı illərində mənfur düşmənə qarşı inadla mübarizə aparıb, Vətən uğrunda oğullar canından keçib, amma bir qarış torpağını belə, yağıya verməyiblər. Eynilə Qaziantep şəhəri də 100 il bundan öncə birləşmiş qüvvələrin qarşısında mərd dayanaraq zəfər tarixini yazıb. Burada olan zaman bizə məlumat verildi ki, Qaziantepin zəngin mətbəxi var. Məşhur Antep paxlavasının və fıstığının tanıdılması məqsədilə festivallar təşkil olunur. Eynilə Naxçıvanda da zəngin təsərrüfat və mətbəx ənənələrimizin, nümunələrimizin gələcək nəsillərə çatdırılması üçün festivallar, yarmarkalar keçirilir. Hər iki qardaş ölkənin ortaq tarixi, mədəniyyəti ilə qürur duyuruq".



***Jalə Fətəliyeva – Bakı Dövlət Universitetinin tələbəsi:*** "İştirakçıların şəxsi inkişafına da mühüm töhfə verən düşərgə hər iki ölkədən olan gənclərin birləşməsinə, onların şəbəkələşməsinə stimul olacaq. Düşərgə ərzində türkiyəli dostlarımıza Vətən müharibəsində Azərbaycan xalqının yenilməz ruhundan, ordunun və Ali Baş Komandanın ətrafında sıx birləşməsindən danışdıq. Əlavə olaraq deyə bilərəm ki, Qaziantep şəhəri zəngin mətbəxi, tarixi turizm yerləri ilə seçilir. Bildəndə ki, qardaş ölkədən gəlmişik, bizə daha səmimi, qonaqpərvər münasibət bəsləyirlər. Fürsətdən istifadə edib təşkilatçılara minnətdarlığımı bildirmək istəyirəm. Hər şey gənclərin könlüncə oldu".

***Yusif Cəfərbəyli – Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin magistr tələbəsi:*** "Düşərgə ərzində bir daha gördük ki, biz bir millətin, iki dövlətin nümayəndələriyik. Ortaq dilimiz, tariximiz, mədəniyyətimiz, mətbəximiz vardır. Bütün bunlara bağlı yaddaqalanları türkiyəli dostlarımızla da bölüşdük. Düşərgənin qazi statusu almış zəfər şəhərində keçirilməsi çox yaxşı bir ideyadır. Onu da deyim ki, mən əslən işğaldan azad olunmuş Laçın rayonunun Sultanlar kəndindənəm. Bu gün Laçında Azərbaycan bayrağı dalğalanır, coğrafi baxımdan çox çətin bir yerdə hava limanı inşa olunur. Bu onu göstərir ki, biz təkcə torpaqlarımızı işğaldan azad etməmişik, həm də o yerləri dirçəldirik. Şuşada, Füzulidə, Xocavənddə olmuşam. Müharibənin başa çatmasından bir il belə ötməmiş ölkə işğaldan azad etdiyi bölgələrdə böyük quruculuq işləri həyata keçirir. Bu onu göstərir ki, bizim həm hərbi, həm də iqtisadi gücümüz vardır. Bütün bunları ölkə Prezidentinin müdrik siyasətinə, şəhidlərimizə, qazilərimizə borcluyuq".

***Nigar Məmmədli – Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun könüllüsü:*** "İki ay bundan öncə Naxçıvanda, bu gün isə Qaziantep şəhərində Zəfər düşərgəsi keçirilirsə, bizim bunu Müzəffər Ali Baş Komandanın siyasi iradəsinə, bizimlə birgə düşərgəyə gələn qazilərin timsalındakı bütün Vətən oğullarına, şəhidlərə borcluyuq. Bir gənc kimi Zəfər tarixi yazmış ölkəmlə qürur duyuram. Qalib ölkənin gənci olmaq... Fikrimcə, bundan böyük fəxarət, qürur ola bilməz".

*Deyirlər, hər şey vaxta baxsa da, vaxt heç nəyə baxmır. Zaman su kimi axıb keçir və artıq Qaziantepla, türkiyəli dostlarla sağollaşmağın vaxtı gəlib çatır. 1000 kilometrdən artıq uzun bir yolu başa vurduqdan sonra müqəddəs məkana, Nuhun yurdu Naxçıvan torpağına çatırıq. Tezliklə belə layihələrin işğaldan azad olunmuş və bu gün Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında dirçələn Qarabağ torpağında reallaşması ümidi ilə...*

**Muxtar RZAZADƏ**
***Naxçıvan-Qaziantep-Naxçıvan***

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

### *Naxçıvan Dövlət Universiteti aşağıdakı kafedralar üzrə müsabiqə elan edir*

**Kafedra müdiri vəzifəsini tutmaq üçün**

1. Nəqliyyat mühəndisliyi və texniki fənlər

**Kafedralarda boş olan vəzifələri tutmaq üçün**

1. Azərbaycan tarixi kafedrası – professor – 1 yer (0,5 ştat)
2. Baytarlıq təbabəti kafedrası – dosent – 1 yer (0,5 ştat)
3. Beynəlxalq münasibətlər kafedrası – müəllim – 1 yer
4. Bədən tərbiyəsi və idman kafedrası – baş müəllim – 1 yer
5. Bələdiyyə və turizm kafedrası – müəllim – 1 yer (0,5 ştat), müəllim – 2 yer
6. Biologiya – professor – 1 yer
7. Çağırışaqədərki hazırlıq və mülki müdafiə kafedrası – baş müəllim – 1 yer, dosent – 1 yer (0,5 ştat)
8. Dünya iqtisadiyyatı və menecment kafedrası – dosent – 2 yer (0,5 ştat)
9. Əczaçılıq və biokimya kafedrası – müəllim – 1 yer (0,5 ştat)
10. Fəlsəfə və sosial iş kafedrası – müəllim – 2 yer
11. Fənlərin TM və texnologiya müəllimliyi kafedrası – baş müəllim – 1 yer
12. Fortepiano kafedrası – müəllim – 1 yer, baş müəllim – 2 yer
13. Hüquq fənləri kafedrası – müəllim – 2 yer (0,5 ştat), müəllim – 3 yer, dosent –1 yer (0,5 ştat)
14. Xalq çalğı alətləri kafedrası – baş müəllim – 1 yer (0,5 ştat), baş müəllim – 1 yer, dosent – 1 yer
15. İqtisadiyyat kafedrası – müəllim – 2 yer, baş müəllim – 1 yer, dosent – 1 yer (0,5 ştat), dosent – 1 yer
16. İnformatika kafedrası – müəllim – 1 yer (0,5 ştat), müəllim – 1 yer, baş müəllim – 3 yer, dosent – 1 yer (0,5 ştat), dosent – 1 yer
17. İngilis dili və metodika kafedrası – müəllim – 4 yer, baş müəllim – 1 yer
18. İngilis dili və tərcümə kafedrası – müəllim – 1 yer, dosent – 1 yer (0,5 ştat)
19. Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası – baş müəllim – 1 yer (0,5 ştat), dosent –1 yer (0,5 ştat)
20. Kimya kafedrası – baş müəllim – 1 yer
21. Meliorasiya və geodeziya mühəndisliyi kafedrası – müəllim – 1 yer, dosent –1 yer (0,5 ştat)
22. Memarlıq kafedrası – müəllim – 1 yer (0,5 ştat)
23. Musiqi təlimi kafedrası – baş müəllim – 2 yer
24. Musiqinin tarixi və nəzəriyyəsi kafedrası – müəllim – 1 yer, dosent – 1 yer
25. Mühasibat uçotu və maliyyə kafedrası – dosent – 1 yer
26. Müzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq kafedrası – baş müəllim – 1 yer
27. Orkestr alətləri və dirijorluq kafedrası – baş müəllim – 1 yer
28. Roman-german dilləri kafedrası – müəllim – 1 yer (0,5 ştat), baş müəllim – 2 yer, dosent –1 yer (0,5 ştat)
29. Rus və Şərq dilləri kafedrası – müəllim – 1 yer (0,5 ştat), müəllim – 2 yer, baş müəllim – 1 yer
30. Teatr və mədəniyyətşünaslıq kafedrası – müəllim – 1 yer (0,5 ştat), dosent – 1 yer (0,5 ştat)
31. Təməl tibb fənləri kafedrası – müəllim – 1 yer (0,5 ştat), müəllim – 1 yer
32. Təsviri incəsənət kafedrası – müəllim – 1 yer, baş müəllim – 1 yer
33. Ümumi riyaziyyat kafedrası – dosent – 1 yer (0,5 ştat)
34. Ümumi tarix kafedrası – baş müəllim – 1 yer, dosent –1 yer (0,5 ştat)
35. Ümumi təbabət və kliniki fənlər kafedrası – baş müəllim – 1 yer
36. Ümumi və nəzəri fizika kafedrası – müəllim – 2 yer (0,5 ştat), baş müəllim – 1 yer

*Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.*

***Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi***
***Telefon: (036)545-23-66/10-01***

### *İtmişdir*

Rəcəbov Malik Heydər oğluna məxsus AD-0012699 nömrəli müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Quliyev Fəqət Əmiraslan oğluna məxsus AD-0014991 nömrəli müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonunun Gömür kənd sakini Yolçuyeva Gülnaz Cümşüd qızının adına verilmiş JN-073[A] və JN-073[B] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 898